20 Jahrgang

Monatlich von Politik- und Kultur

اوز گله جه یینی تعیین ائتمک آذربایجان خالقی نین وازگئچیلمه ز حاقی دیر

# آنا دیلی

اوْغلاق بوْرجوْ

No. 235 ۲۰ ـ نجی ایل

19 Februar 2004

۳۰ کیچیک چیلله ـ بهمن ۱۳۸۲

ANA DILI Südazerbaidschanische Exilzeitung

BEINHALTET DIE WÜNSCHE DER AZERBAIDJANISCHEN BEVÖLKERUNG

SIE HAT KEINE BEZIEHUNG ZU PARTEIEN UND VEREINEN



Ursprunglicher Grenzverlauf Azerbaijan

## Avrupa birliyi və tűrkiyə

## آوروپا بیرلی‌یی وه تۆرکییه

70. ci illərdən bəri Tűrkiyə'də bir Avrupa heyranlığı movcuddur. Bunun ana səbəbi 60-ci illərdə yeni anayasanin qəbul edilməsi,məxsusən 70-ci illərdə Tűrkiyə'dən işcilərin Avrupa ölkələrinə gəlməsi və munasibətlərin dövlətlər səviyisində gűclənməsi, Avrupa iqtisadiyatinin çiçəklənməsi Tűrkiyə toplumunun orta və aşağı səviyəli kəsimlərinin Avrupa ilə tanış olmasindan irəli gəlir. Tűrkiyə siyasətçiləri bunu Atatűrkűn Avrupa mədəmiyyətini mənimsəməsi ilə açıqlamağa çalışırlar. Bu görűşű nisbi olaraq qəbul etmək olar. çűnkű Atatűrkűn Avrupa mədəniyyətinə yaxınlaşmasinin ana səbəbi Isalm dininə arxalanan Osmanlı impiratorluğunun qarşısında başqa bir alternativ qoymaq olmuşdur. Amma hər halda onun ana məqsədi Avrupanın elmi və tekniki imkanlarından yararlanmaq, dini xurafatan uzqlaşmaq idi. çűnkű osmanlı impratorluğu və onada yerde qalan Tűrkiyə mədəniyyəti islamiyətlə yoğrulmuş bir mədəniyyət idi. Buna qarşılıq qərb mədəniyəti isə məsihiyyətlə qaynaşmış və gəlişmiş bir mədəniyətdir. Birini obirinə tətbiq etmək olduqca çətindir. bəlli prensiblərdən əl götűrűlməsini məcbur qılır.

Əlbtə Tűrkiyə'də Avrupa heyranlığı azarlığı( xəstəliyi) Tűrkiyə nin NATO'ya alnmasilədə əlaqədardır. Bizə görə Tűrkiyə dövlət başçıları bunu yalnış başa dűşműşlər. Qərb dövlətləri Tűrkiyə'ni NATO'ya almaqdan məqsədləri onu öz səviyələrində bilmələrindən iləri gəlmirdi. əksinə qərbi Avrupanı Soviyet Imperiyasının genişləməsinin qarşısını almaq

Ardi 3.cü sehifede



# دونیا آذه ربایجانلیلاری نین ۷ ـ نجی قورولتایی

# Dűnya Azərbaycanlıların 7- ci Qurultayı



دونیا آذه ربایجانلیلاري نین ۷ ـ نجی قوْروْلتایي ۲۷ـ ۲۹ فئوریه آییندا چوْخ باشاریلي شکیلده کئچیریلمیشدیر. بوْ قوْروْلتاي بوْگونه قده ر اوْلان موفقیيتلی قوْروْلتایلاردان بیری ایدی. بیر نئچه آي قاباقدان بللی شخصیلرین وه دایره لرین قوْروْلتایي سوْال آلتینا آلاراق بوْ تشکیلاتي پارچالاما جهدلریده بوْشا چیخمیشدیر.

آنا وطنیمیزده ن وه دونیانین ۱۷ ـ اوْلکه سینده ن گه لن سوْیداشلاریمیزین سایي ۳۰۰ نفرده ن چوْخ نفر ایدی. اوْنلارین ایچینده عالیم ، صنعتکار وه ایش آداملاري اوْلدوْغوْ کیمی قوْزئي آذه ربایجانین موْخالیفت وه حاکمیت دایره لرینده ن ده اینسانلاردا ایشتیراک ائدیردیلر. اینجه صنعت خادیملریمیزده ن ایلهامه خانیم ، ایمانوْف جنابلاري وه کمانچا اوْستادی هابیل به ي بوْ قوْروْلتایدا ایشتیراک ائدیردیلر.

هر زامان اوْلدوْغوْ کیمی صحنه ده آذه ربایجانیمیزین اوچ رنگیلی میللی بایراغي آسیلمیشدیر. فئوریه آیي نین ۲۷ سینده جومه گونو سحر ساعات ۱۰ ـ دا رسمی شکیلده کوْنگوْره اوْز ایشینه باشلادي. کوْنگوْره نین آچیلیشي قوْزئي آذه ربایجانین میللی مارشي ایله باشلادي. یئدینجي قوْروْلتایین اساس موْوضوْلاري بوْنلاردان عبارت ایدی :

۱ـ گونئي آذربایجان دا گئدن میللی قوْرتوْلوْش موْجادیله‌سی ، قوْروْلاجاق گونئي آذه ربایجانین میللی حوْکوْمتی‌نین آتروْبوْتلاري

۲ـ قوْزئي آذه ربایجان ، قاراباغ وه موْختلیف تاریخلرده ایشغال اوْلوْنان آذه ربایجان اراضیلری

۳ـ خوْجالي فاجیعه سی . آذه ربایجانلیلارین سوْي قیریملاري قوْروْلتایین زاماني نین محدوْد اوْلماسینا باخمیاراق بوْ اوچ گونده معروْضه ایله چیخیش ائده نلرین سایي ۵۰ ـ نفرین اوستونده ایدی. دئمک اوْلارکی قوْروْلتاي تام دئموْکراتیک شکیلده ، سامبالي وه مدنی شکیلده کئچیریلمیشدیر.

قوْروْلتایین اوچ گونلوک ایداره ائدیجی عضوولری سئچیلدیکده ن سوْنرا ، دونیا آذه ربایجانلیلار کوْنگوْره سی نین صدری دوْقتوْر درختی جنابلاري ایللیک حسابلاتینی وئرمیش، گوْرولن ایشلر ، گوْروشلری حاقدا معلوْمات وئرمیشدیر. قوْروْلتاي ایشتیراکچیلاري ایداره هئیتی نین گوْردویو ایشلرده ن ممنوْن قالمیشدیر.

قوْروْلتایین کئچمیش ایداره هئیتینده ن اوْلان اقبال بـه‌ي

آردي ۲ـ نجی صحیفه ده

## قوْندارما« ائرمنیستان »ائلچی‌لیيی قارشي‌سیندا

## Qondarma«Ermənistan»elçiliyi qarşisinda

فئوریه آیي نین ۲۶ ـ سیندا غئیره تلی، ناموْسلوْ وه میللتینی سئوه ن آذربایجان گنجلری تئهراندا یئرله شن قوْندارما« ائرمنیستان!» ائلچی‌لیيی قارشي‌سیندا چوْخ طنطنه‌لی اعتیراض میتینگی کئچیره‌ره‌ک قوْندارما « ائرمنیستان !» بایراغیني اوْدا چکمیشلر. بوْ اعتیراض میتینگی ائرمنیلر طرفیندن ۱۹۱۸ ـ نجی ایللرده آذربایجانین هر ایکی تایيندا آذه ربایجانلیلارا قارشي آپاریلان سوْي قیریمي نین وه ائله‌جه‌ده خوْجالي فاجیعه‌سی‌نین ایلدوْنومو موْناسیبتی ایله کئچیریلمیشدیر. بیز بوْ غئیره تلی وطنداشلاریمیزي آلقیشلایاراق ، بوْ شکیلده تاریخی واقعیتلری دونیا ایجتماعیتی نین گوْزلری قارشي‌سیندا سرگیله‌مه‌لرینی حمایت وه تایید ائدیریک. چونکو **کئچمیشینی ، تاریخینی**

آردي ۲ـ نجی صحیفه ده

DIE SELBSTBESTIMMUNG IST UNVERZICHTBARES RECHT DES SÜD -AZERBAIDJANISCHEN VOLKES!